# “CAPITAL PARTNERS İNVESTİSİYA ŞİRKƏTİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq**
**Standartlarına uyğun hazırlanmış**
**Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**
31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

## "CAPİTAL PARTNERS İNVESTİSİYA ŞİRKƏTİ" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

## MÜNDƏRİCAT


31 DEKABR 2022-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT ........ 1
MÜSTƏQİL AUDİTORUN HESABATI ........ 2
MƏNFƏƏT VƏ ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT ........ 5
MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT ........ 6
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT ........ 7
PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT ........ 8
1. GİRİŞ ........ 9
2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ ........ 9
3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR ........ 19
4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ ........ 22
5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR ........ 23
6. GƏLİRLƏR ........ 26
7. İNZİBATİ VƏ SAİR ƏMƏLİYYAT XƏRCLƏRİ ........ 26
8. MƏNFƏƏT VERGİSİ ........ 26
9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ........ 27
10. ƏMLAK VƏ AVADANLIQLAR ........ 27
11. QEYRİ-MADDİ AKTİVLƏR ........ 28
12. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI ........ 28
13. TƏXİRƏ SALINMIŞ VERGİLƏR ........ 29
14. ALINACAQ KOMİSSİYA HAQLARI ........ 29
15. DİGƏR AKTİVLƏR ........ 29
16. KAPİTAL VƏ EHTİYATLAR ........ 29
17. DİGƏR ÖHDƏLİKLƏR ........ 30
18. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ ........ 30
19. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ ........ 31
20. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR ........ 35

## 31 DEKABR 2022-ci İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik «Capital Partners İnvestsiya Şirkəti» Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, eləcə də həmin tarixə bitən il üzrə əməliyyat nəticələri, pul vəsaitlərinin hərəkəti və səhmdar kapitalında dəyişiklikləri düzgün əks etdirən maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanmasında rəhbərlik aşağıdakılara cavabdehdir:

Mühasibat uçotu qaydalarının müvafiq şəkildə seçilməsi və tətbiqinə;
Məlumatların, o cümlədən mühasibat uçotu qaydalarının müvafiq, mötəbər, müqayisəli və anlaşıla bilən tərzdə təqdimatına;
İstifadəçilərə xüsusi əməliyyatların, digər hadisə və şəraitlərin Cəmiyyətin maliyyə vəziyyəti və maliyyə nəticələrinə təsirini anlamaqda yardım göstərilməsi üçün MHBS-nın xüsusi tələblərinin yerinə yetirilməsi kifayət etmədikdə əlavə açıqlamalar verilməsinə;
Cəmiyyətin fasiləsizlik prinsipinə əsasən fəaliyyətini davam etdirə bilməsi imkanlarının qiymətləndirilməsinə.

Həmçinin rəhbərlik aşağıdakılara görə məsuldur:

Cəmiyyət daxilində sağlam və effektiv daxili nəzarət sisteminin yaradılması, tətbiqi və saxlanılmasına;
Cəmiyyətin əməliyyatlarının açıqlanması və izah edilməsi, habelə onun maliyyə hesabatlarının istənilən vaxt dəqiqliklə açıqlanması üçün yetərli olan və Cəmiyyətin maliyyə hesabatlarının MHBS-na uyğun gəldiyini təmin edə biləcək müvafiq mühasibat uçotu qeydlərinin aparılması;
Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat uçotu qaydalarına müvafiq olaraq məcburi mühasibat uçotu qeydlərinin aparılmasına;
Cəmiyyətin aktivlərinin mühafizə olunması üçün mümkün tədbirlər görülməsinə;
Saxtakarlıq və digər pozuntuların müəyyən edilməsi və qarşısının alınmasına;

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

Qapalı Səhmdar Cəmiyyəti Capital Partners Closed Joint-Stock Company

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

GROW
A U D I T

Grow Audit and Consulting QSC
8 Noyabr pr, AZURE bizness mərkəzi
AZ1025, Bakı, Azərbaycan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

Grow Audit and Consulting CJSC
8 November ave, AZURE business centre
AZ1025, Baku, Azerbaijan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**«Capital Partners İnvestsiya Şirkəti» Qapalı Səhmdar Cəmiyyəti İdarə Heyətinə:**

## Maliyyə hesabatlarının auditinə dair hesabat:

### Müsbət rəy

Biz, «Capital Partners İnvestsiya Şirkəti» Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra "Cəmiyyət") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, maliyyə hesabatları 31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin axını üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

### Müsbət rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları auditor rəyini əsaslandırmaq üçün yetərli və münasibdir.

### Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına («BMHS») uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz əlavə edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimәsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət

GROW
A U D I T

Grow Audit and Consulting QSC
8 Noyabr pr. AZURE bizness mərkəzi
AZ1025, Bakı, Azərbaycan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

Grow Audit and Consulting CJSC
8 November ave, AZURE business centre
AZ1025, Baku, Azerbaijan
Tel: +994 12 488 63 49
Fax: +994 12 488 63 49
Mobil: +994 55 277 50 99
www.grow.az

- olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz İdarəetmə səlahiyyətləri verilmiş şəxslər digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin İdarə Heyətinin sədrinə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İdarə Heyətinin sədrinin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"GROW AUDIT AND CONSULTING" Qapalı Səhmdar Cəmiyyəti**

**Bakı, Azərbaycan Respublikası** **Abdurahmanov Orxan Əlisəfa oğlu**

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ GROW AUDIT AND CONSULTING CLOSED JOINT-STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**31 may 2023-ci il**

## MƏNFƏƏT VƏ ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Əməliyyat gəlirləri | 6 | 25,372 | - |
| **Əməliyyat fəaliyyəti üzrə gəlir** | | **25,372** | - |
| İnvestisiya fəaliyyətindən gəlir | 6 | 15,000 | 15,226 |
| **İnvestisiya fəaliyyəti üzrə gəlir** | | **15,000** | **15,226** |
| İnzibati və sair əməliyyat xərcləri | 7 | (47,311) | (1,543) |
| **İnzibati və sair əməliyyat xərcləri** | | **(47,311)** | **(1,543)** |
| **Mənfəət verigisindən əvvəl mənfəət** | | **(6,939)** | **13,683** |
| Mənfəət vergisi üzrə (gəlir)/xərc | 8 | 251 | - |
| **İl üzrə xalis (zərər) / mənfəət** | | **(6,688)** | **13,683** |
| Digər məcmu gəlir | | | |
| *Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif edilməyəcək digər məcmu gəlir* | | | |
| Digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə əks etdirilən kapital alətinin ədalətli dəyərindəki xalis dəyişiklik | 16 | - | 180,000 |
| Digər məcmu gəlirdə birbaşa qeydə alınan mənfəət vergisi | 16 | - | (36,000) |
| **Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif edilməyəcək xalis digər məcmu gəlir** | 16 | - | **144,000** |
| **İl üzrə cəmi məcmu (zərər) / gəlir** | | **(6,688)** | **157,683** |

**Cəmiyyətin adından:**

Qapalı Səhmdar Cəmiyyəti Capital Partners Closed Joint-Stock Company

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| Aktivlər: | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 292,226 | 15,281 |
| Əmlak və avadanlıqlar | 10 | 2,105 | - |
| Qeyri-maddi aktivlər | 11 | 60,000 | - |
| İnvestisiya qiymətli kağızları | 12 | 240,000 | 240,000 |
| Təxirə salınmış gəlir vergisi aktivləri | 13 | 251 | - |
| Alınacaq komissiya haqları | 14 | 5 | - |
| Digər aktivlər | 15 | 1,817 | 1,817 |
| **Cəmi aktivlər** | | **596,404** | **257,098** |
| Öhdəliklər: | | | |
| Digər öhdəliklər | 17 | 59,249 | 33,255 |
| **Cəmi öhdəliklər** | | **59,249** | **33,255** |
| Kapital: | | | |
| Nizamnamə kapitalı | 16 | 400,000 | 80,000 |
| Yığılmış defisit | | (6,845) | (157) |
| İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlirlər | 16 | 144,000 | 144,000 |
| **Cəmi kapital** | | **537,155** | **223,843** |
| **Cəmi öhdəliklər və kapital** | | **596,404** | **257,098** |

**Cəmiyyətin adından:**

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

# KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Yığılmış defisit | İnvestisiya qiymətli kağızları üzrə realizasiya olunmamış gəlirlər | Cəmi kapital |
|---|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **80,000** | **(13,840)** | **144,000** | **210,160** |
| İl üzrə (zərər)/mənfəət | - | 13,683 | - | 13,683 |
| Nizamnamə kapitalının artırılması | - | - | - | - |
| **31 dekabr 2021-ci il** | **80,000** | **(157)** | **144,000** | **223,843** |
| **01 yanvar 2022-ci il** | **80,000** | **(157)** | **144,000** | **223,843** |
| İl üzrə (zərər)/mənfəət | - | (6,688) | - | (6,688) |
| Nizamnamə kapitalının artırılması | 320,000 | - | - | 320,000 |
| **31 dekabr 2022-ci il** | **400,000** | **(6,845)** | **144,000** | **537,155** |

**Cəmiyyətin adından:**

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:** | | | |
| Vergidən əvvəl mənfəət | | (6,939) | 13,683 |
| *Düzəlişlər:* | | | |
| Əmlak və avadanlıqların köhnəlməsi | 7 | 1,255 | - |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri** | | **5,684** | **13,683** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | | |
| Alınacaq komissiya haqları üzrə xalis dəyişiklik | 14 | (5) | - |
| Digər öhdəliklər üzrə xalis dəyişiklik | 17 | 25,994 | - |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən daxil olan pul vəsaitləri** | | **20,305** | **13,683** |
| Ödənilmiş gəlir vergisi | | - | - |
| **Əməliyyat fəaliyyətlərindən daxil olan xalis pul vəsaitləri** | | **20,305** | **13,683** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | 10 | (3,360) | - |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | 11 | (60,000) | - |
| **İnvestisiya fəaliyyətlərindən daxil olan/(yönələn) xalis pul vəsaitləri** | | **(63,360)** | **-** |
| **Maliyyələşdirmə fəaliyyətdə üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə kapitalı üzrə dəyişikliklər | 16 | 320,000 | - |
| **Maliyyələşdirmə fəaliyyətindən xalis pul vəsaitlərinin hərəkəti** | | **320,000** | **-** |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım | | 276,945 | 13,683 |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin əvvəlinə | | 15,281 | 1,598 |
| Pul vəsaitləri və onların ekvivalentləri, ilin sonuna | | 292,226 | 15,281 |

**Cəmiyyətin adından:**

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-35-ci səhifələrdə təqdim edilmiş qeydlər maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## 1. GİRİŞ

### Cəmiyyət və onun əsas fəaliyyəti

«Capital Partners İnvestsiya Şirkəti» Qapalı Səhmdar Cəmiyyəti ("Cəmiyyət") 12 noyabr 2007-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyata alınmış və təsis olunmuşdur. Cəmiyyət Azərbaycan Respublikas İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidmətinin 12 noyabr 2007-ci il 1700813741 saylı şəhadətnaməsi əsasında fəaliyyət göstərir. İnvestisiya xidmətlərinin göstərilməsi üçün tələb olunan lisenziya Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 22 iyun 2022-cı il tarixində İŞ-09 nömrəsi ilə verilmişdir.

Cəmiyyətin əsas fəaliyyəti yerli qiymətli kağızlar bazarında investisiya qoymaq istəyən müştərilərə broker xidmətlərinin və əsasən qiymətli kağızlarla əməliyyatlar ilə bağlı xidmətlərin göstərilməsidir. Xidmətlərin siyahısına brokerlik, diler, aktivlərin idarə edilməsi, onlayn ticarət platformalarına giriş və digər xidmətlər daxildir. Cəmiyyət qiymətli kağızların ticarətini yerli və beynəlxalq bazarlarda həyata keçirir.

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin işçilərinin sayı 5 nəfər (31 dekabr 2021-ci il: 1 nəfər) olmuşdur.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyətin mülkiyyət strukturu aşağıdakı kimi olmuşdur:

| **Səhmdar** | **31 dekabr 2022-ci il** | **31 dekabr 2021-ci il** |
|---|---|---|
| "Rabitəbank" Açıq Səhmdar Cəmiyyəti | 100% | 100% |
| **Cəmi** | **100%** | **100%** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyətə nəzarət cənab Səfərəliyev İkram Bəhman oğluna məxsusdur.

### Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer

Cəmiyyətin hüquqi ünvanı: AZ 1001, Bakı şəhəri Səbail rayonu, Bünyad Sərdarov, ev1.

## 2. ƏHƏMİYYƏTLİ UÇOT SİYASƏTLƏRİ

### Təqdimatın digər əsasları

Maliyyə hesabatları ədalətli dəyərdə ölçülən satışı mümkün olan maliyyə aktivləri, törəmə maliyyə alətləri, torpaq və binalar və investisiya xüsusiyyətləri istisna olmaqla tarixi qiymət əsasında hazırlanmışdır. Ədalətli dəyərdə sığortalanan tanınmış aktiv və öhdəliklərin köçürmə dəyərləri, sığorta edilən risklərə aid edilən ədalətli dəyərdə dəyişiklikləri qeyd etmək üçün uyğunlaşdırıldı. Maliyyə hesabatları Azərbaycan manatında göstərilib, əks təqdirdə bütün dəyərlər ən yaxın rəqəmə yuvarlaqlaşdırılır.

### Uyğunluq bəyanatı

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq Cəmiyyəti ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

**Cari və ya uzunmüddətli təsnifləşdirmələr**

Cəmiyyət cari/uzunmüddətli təsnifat meyarları əsasında maliyyə vəziyyəti haqqında hesabatda aktivləri və öhdəlikləri təqdim edir. Cəmiyyət aşağıdakı hallarda aktivləri cari aktiv kimi təsnifləşdirir:

- aktiv Cəmiyyətin adi əməliyyat dövründə satılmaq və ya istifadə üçün saxlanıldıqda və ya aktivin realizasiya olunması ehtimal olunduqda;
- aktiv əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- aktivin hesabat tarixindən sonra on iki ay müddətində realizasiya ediləcəyi ehtimal olunduqda; və ya
- aktiv hesabat tarixindən sonra ən azı on iki ay müddətində mübadiləsinə və ya istifadəsinə məhdudiyyət qoyulmayan pul vəsaiti və ya onun ekvivalenti formasında olduqda.
- Cəmiyyət aşağıdakı hallarda öhdəlikləri cari öhdəlik kimi təsnifləşdirir:
- Cəmiyyətin adi əməliyyat dövründə onların ödənilməsi nəzərdə tutulduqda;
- əsasən alqı-satqı məqsədləri üçün saxlandıqda;
- hesabat tarixindən etibarən on iki ay ərzində ödənilməli olduqda; və ya
- Cəmiyyət öhdəliyin yerinə yetirilməsini hesabat tarixindən ən azı on iki ay uzatmaq kimi şərtsiz hüquqa malik olmadıqda.

Cəmiyyət bütün digər öhdəlikləri uzunmüddətli kimi təsnif edir.

**Gəlirlərin tanınması**

Gəlirlər Cəmiyyətə iqtisadi mənfəətin gəlməsi və gəlirin etibarlı şəkildə ölçülməsi ehtimalı olduğu dərəcədə tanınır. Xidmət gəlirlərinin əhəmiyyətli hissəsi qiymətli kağızlarla bağlı brokerlik haqları və portfelin idarə edilməsindən gəlirdən ibarətdir.

**Broker fəaliyyətindən gəlir**

Qrup qarşı tərəflər adından qiymətli kağızların alqı-satqısını həyata keçirərkən agent kimi çıxış edərək, qarşı tərəflərə broker xidmətləri göstərir. Broker fəaliyyətindən əldə edilən gəlir əqd məbləğinin faizi kimi hesablanır və müəyyən zaman anında qazanılır. Broker fəaliyyətindən əldə edilən gəlirlərə yalnız göstərilmiş xidmətlər üzrə marja daxildir və müəyyən komissiya xərcləri çıxılmaqla göstərilir.

**Portfelin idarə edilməsindən gəlir**

Cəmiyyət portfelin idarə edilməsi xidmətləri məqsədilə müştərilərdən 1-3 il müddətinə idarə olunmaq üçün qiymətli kağızlar və / və ya pul vəsaitləri formasında investisiya portfeli əldə edir. Portfelin idarə edilməsi xidmətlərindən əldə olunan gəlir iki hissəyə bölünür.

1) İdarəçilik komissiyası. İdarəçilik komissiyası portfelin idarə olunması üçün əvvəlcədən razılaşdırılmış sabit dərəcədir. İdarəçilik komissiyası aylıq hesablanır və dövr ərzində Şirkət tərəfindən əldə edilir. İdarəçilik komissiyası adətən bir müştəri üçün idarə olunan aktivlərin ümumi səviyyəsinə və ya ayrı-ayrı aktivlərin növünə və tərzinə görə komissiya cədvəllərinə uyğun hesablanır.

2) Perfomans komissiyası. Performans komissiyası portfelin idarə edilməsi üçün müştəridən əldə edilən portfelin nəticələrinə görə dəyişkən məbləğdir. Perfomans komissiyası adətən portfelin bir baza indeksindən və ya eyni qrupun perfomansından artıq olan nisbəti kimi hesablanır. Performans komissiyasında təbii artım əsasən idarəetməyə verilmiş xalis aktivlər üzrə yeni daxilolmalardan asılıdır. Əsas amillər hesab olunan ümumi bazar şərtlərindən qlobal maliyyə aktivlərinin artması əhəmiyyətli uzunmüddətli iqtisadi faktor kimi çıxış edir.

3) Gəlir icra öhdəliyi yerinə yetirildiyi zaman, yəni mal və ya xidmətlər üzrə nəzarət müştəriyə ötürüldükdə tanınır. İcra öhdəliyi dövr ərzində və ya müəyyən zaman anında yerinə yetirilə bilər. Dövr ərzində yerinə yetirilmiş icra öhdəliyindən əldə olunan gəlir mal və xidmətlərin müştəriyə ötürülməsi ilə ölçülən icra öhdəliyinin yerinə yetirilmə səviyyəsi ilə tanınır. Müəyyən zaman anında yerinə yetirilən icra öhdəliyindən əldə olunan gəlir vəd edilmiş mal və ya xidmətlər üzrə nəzarət müştəriyə keçdiyi anda tanınır.

4) Perfomans komissiyası qazanıldığı və müəyyən edildiyi dövrdə tanınır. Perfonnans komissiyası bütün qeyri- müəyyənliklər həll olunana və əvvəlki dövrdə qeydə alınmış məbləğlərin geri qaytarılma ehtimalı olmayana qədər məhdudlaşdırılır. Portfelin perfomansı qənaətbəxş səviyyədə olmadıqda və ya müsbət nəticə göstərə bilmədikdə, gələcək illərin perfomansı komissiya əldə olunana qədər adətən bu kəsirdən yüksək olmalıdır.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə, ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər, ən yaxşı olaraq, əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks etdirilir.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər, ən yaxşı olaraq, fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında, davamlı olaraq, məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin qalıq dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi üsulu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması üsuludur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis qalıq dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. İlkin dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin təsnifatı**

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.
- Borc aləti aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:
- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD-də ölçülmüş kimi təsnif edilir.Bununla yanaşı, ilkin tanıma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin portfel səviyyəsində saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün şəkildə əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, xüsusilə rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin necə qiymətləndirilməsi və Cəmiyyətin rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması - məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyətin məqsədinə necə nail olmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məsələn, likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək. Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Cəmiyyətin iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məsələn, reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər - məsələn, faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.
- Maliyyə alətlərinin yenidən təsnifi

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri və digər qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən üç ay və ya daha az ödəniş müddətinə malik olan yüksək likvidlik dərəcəsinə malik qoyuluşlar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir və (ii) onlar MZVƏD olaraq təyin edilmir.

**DMGVƏD-də olan kapital alətləri**

İlkin tanımadan sonra, Cəmiyyət mütəmadi olaraq öz kapital investisiyalarını "Maliyyə Alətləri: Təqdimat" adlı 32 saylı BMUS üzrə kapital tərifinə cavab verən və ticarət üçün nəzərdə tutulmayan, DMGVƏD-də olan kapital alətləri kimi təsnifləşdirməyi seçir. Bu cür təsnifat hər bir alət əsasında müəyyənləşdirilir.

Bu kapital alətləri üzrə gəlirlər və zərərlər heç vaxt mənfəət və ya zərərə çevrilmir. Cəmiyyət alətin dəyərinin bir hissəsinin bərpası kimi daxilolmalar üzrə mənfəət əldə etməsi və bu halda belə gəlirlərin DMG-də qeydə alınması halı istisna olmaqla, dividendlər ödəmə haqqı təqdim edilən zaman digər gəlir kimi mənfəət və ya

zərərdə tanınır. DMGVƏD-də olan kapital alətləri dəyərsizləşmə üzrə qiymətləndirməyə məruz qalmır. Bu alətlərin silinməsindən sonra yığılmış yenidən qiymətləndirmə ehtiyatı bölüşdürülməmiş mənfəətə köçürülür.

**Alınacaq komissiya haqları**

Alınacaq komissiya haqları effektiv faiz dərəcəsi metodundan istifadə etməklə amortizasiya olunmuş maya dəyərində ölçülür.

Cəmiyyət, alınacaq komissiya haqları üzrə gözlənilən kredit zərərlərini hesablamaq üçün ehtiyat cədvəlindən istifadə edir. Ehtiyat dərəcələri, oxşar zərər xüsusiyyətlərinə malik (məsələn, coğrafi mövqe, məhsul növü, müştəri növü və reytinqi üzrə) müxtəlif müştəri seqmentlərinin qruplaşmaları üzrə vaxtı keçmiş günlərə əsaslanır.

Ehtiyat cədvəli ilk olaraq Cəmiyyətin müşahidə olunmuş tarixi defolt dərəcələrinə əsaslanır. Cəmiyyət, kredit zərəri üzrə tarixi təcrübəni gələcəkyönümlü məlumatlarla əlaqələndirmək üçün cədvəl tərtib edir.

Tarixi müşahidə olunmuş defolt dərəcələri, proqnozlaşdırılan iqtisadi şərtlər və gözlənilən kredit zərərləri arasında mövcud olan əlaqənin qiymətləndirilməsi əhəmiyyətli sayılan bir təxmindir. Gözlənilən kredit zərərlərinin məbləği şərait və proqnozlaşdırılan iqtisadi şərtlər üzrə dəyişikliklərə qarşı həssasdır. Cəmiyyətin kredit zərəri üzrə tarixi təcrübəsi və iqtisadi şərtlər üzrə proqnozu da gələcəkdə müştərinin faktiki defoltunu təmsil etməyə bilər.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

**Yenidən satın alınmış müqavilələr üzrə borc alınmış vəsaitlər**

Cəmiyyət mülkiyyət riskləri və mükafatlarının hamısını özündə saxladığından, müəyyən edilmiş gələcək tarixdə repo müqavilələri əsasında satılan qiymətli kağızlar, maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılmır. Alınmış müvafiq pul vəsaitləri, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyətə veriləcək kredit kimi əks etdirən repo müqavilələri daxilində borc alınmış vəsaitlər kimi yığılmış faizlər də daxil olmaqla, geri qaytarılması nəzərdə tutulan müvafiq öhdəliyi olan bir aktiv kimi maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Satış və yenidən satınalma qiymətləri arasındakı fərq faiz xərcləri kimi qəbul edilir və effektiv faiz dərəcəsindən istifadə edərək müqavilə müddəti ərzində hesablanır.

Qarşı tərəfin qiymətli kağızları satmaq və ya yenidən girov qoymaq hüququ olduqda, Cəmiyyət bu qiymətli kağızları, maliyyə vəziyyəti haqqında hesabatında, müvafiq olaraq, ticarət məqsədilə təminat olaraq girov qoyulmuş maliyyə aktivi və ya toplanmaq və ya satmaq məqsədilə təminat olaraq qoyulmuş maliyyə investisiyası kateqoriyasında yenidən təsnifləşdirir.

Əksinə, müəyyən edilmiş gələcək tarixdə yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satınalınmış qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Hesablanmış faizlər də daxil olmaqla ödənilmiş kompensasiya, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyət tərəfindən kredit kimi əks etdirən əks repo müqavilələri üzrə debitor borcları daxilində maliyyə vəziyyəti haqqında hesabatda uçota alınır. Alqı-satqı

qiymətləri arasındakı fərq xalis faiz gəlirində uçota alınır və EFD-dən istifadə etməklə müqavilənin qüvvədə olduğu müddət ərzində hesablanır.

Yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satınalınmış qiymətli kağızlar sonradan üçüncü şəxslərə satılarsa, qiymətli kağızların qaytarılması öhdəliyi ticarət üçün saxlanılan maliyyə öhdəliklərində qısa satış kimi qeydə alınır və xalis ticarət gəlirinə daxil edilən hər hansı gəlir və ya zərərlə ədalətli dəyərdə ölçülür.

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Hər hesabat dövrünün sonunda Cəmiyyət əmlak və avadanlıqların dəyərsizləşməsinin hər hansı bir göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə bir göstərici mövcuddursa, Cəmiyyət, satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və onun istifadə dəyərinin ən yüksək olduğu kimi müəyyən edilən, bərpa edilə bilən məbləği qiymətləndirir. Əmlak və avadanlığın qalıq dəyəri onların təxmin edilən bərpa edilə bilən dəyərindən çox olduqda, onların bərpa edilə bilən dəyərinə qədər silinir və fərq mənfəət və ya zərər haqqında hesabatda dəyərsizləşmə zərəri kimi əks etdirilir.

Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər və məcmu gəlirlər haqqında hesabatda əks etdirilir.

Təmir və mühafizə xərcləri baş verdikdə mənfəət və ya zərər haqqında hesabat və digər məcmu gəlir hesab edilir.

Köhnəlmə düz xətt metodundan istifadə etməklə aktivlərin faydalı istismar müddəti ərzində qalıq dəyərləri çıxılmaqla ilkin dəyərin silinməsi üçün tanınır. Faydalı istismar müddəti təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər bir hesabat tarixinin sonunda yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini istismar müddəti tətbiq edilir:

| | |
|---|---|
| yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | 25% |
| digər əsas vəsaitlər | 20% |
| qeyri-maddi aktivlər | 10% (əgər istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə) |

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, tikili və avadanlıqların tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Qeyri-maddi aktivlər**

Cəmiyyətin qeyri-maddi aktivlərinin qeyri-müəyyən faydalı və müəyyən faydalı iqtisadi ömürləri mövcuddur . Buraya əsasən broker fəaliyyəti üçün əldə olunmuş lisenziyalar və qiymətli kağızlar üzrə ticarət ilə bağlı digər lisenziyalar daxildir.

Ayrıca satın alınmış və müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla maliyyə vəziyyəti hesabatında tarixi dəyəri ilə tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı ömrü ərzində düz xətt metodu ilə hesablanır. Faydalı ömür

təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə maya dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz əmlak, avadanlıq və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa, belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin qalıq dəyərini təhlil edir.

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə əldə edilməsi mümkün olan məbləğ aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyərindən azdırsa, onun qalıq dəyəri qaytarılması mümkün olan məbləğə qədər azaldılır. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) qalıq dəyəri yenidən təyin edilmiş məbləğə qədər artırılır amma yeni təyin edilmiş qalıq dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə itkilərinin tanınmasından öncə mövcud olan qalıq dəyərindən daha çox ola bilməz.

Silindikdə, satıldıqda və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilir. Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin tanınmasına xitam verilməsi nəticəsində yaranan mənfəət və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin qalıq dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Vergiqoyma**

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun qalıq dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin qalıq dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir hesabında əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edilsin və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olsun.

Azərbaycan Respublikasında fəaliyyət göstərən Cəmiyyətin fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir hesabatına daxil edilir.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Cəmiyyət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir.

Cəmiyyət Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Əmək haqları**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə vəziyyəti hesabatında tanınmır, amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti aktivlər maliyyə vəziyyəti hesabatında tanınmır, amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

**Fidusiar fəaliyyətlər**

Cəmiyyət, müştəriləri adından aktivlərin saxlanması və ya investisiyası ilə nəticələnən etibarlılıq və digər fidusiar xidmətlər göstərir. Fidusiar aktivlər, tanınma meyarlarına cavab verilmədiyi təqdirdə, Cəmiyyətin aktivləri olmadığı üçün, Cəmiyyətin maliyyə hesabatlarında əks olunmur. Etibarlılıq və digər fidusiar xidmətlərin göstərilməsindən əldə edilən gəlir, xidmətlərin təmin olunduğu kimi tanınır.

**Nizamnamə kapitalı**

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

Hesabat tarixindən sonra elan edilmiş dividendlər "Hesabat tarixindən sonra baş vermiş hadisələr" adlı 10 saylı Beynəlxalq Mühasibat Uçotu Standartına ("10 saylı BMUS") müvafiq olaraq maliyyə hesabatlarında açıqlanır.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nın valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesablarında xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlər/(zərərlər) sətrində göstərilir.

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nın valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesablarında xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlər/(zərərlər) sətrində göstərilir.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Cəmiyyət növbəti maliyyə dövrü ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir:

**Fidusiar fəaliyyətlər**

Bütün risklər və mükafatalar tərəflər arasında imzalanmış müqavilə çərçivəsində müştəriyə aid olduğu üçün müştəri adından qoyulmuş investisiyalar Cəmiyyətin aktivlərinin bir hissəsi olaraq uçota alınmır.

Hesabat dövründə Cəmiyyət müştərilərdən pul vəsaitləri əldə etmişdir və müştəriləri adından borc qiymətli kağızları satın almışdır. Həmin pul vəsaitləri "Maliyyə Hesabatlarının Təqdimatı" adlı 1 saylı MUBS-a müvafiq olaraq aktivlərin tanınma meyarlarına (fayda və nəzarət) uyğun gəlmədiyi üçün rəhbərlik həmin vəsaitləri maliyyə vəziyyəti haqqında hesabatda pul vəsaitləri və onların ekvivalentləri olaraq tanımamışdır.

Müştərilərdən əldə olunan pul vəsaitlərinin maliyyə hesabatlarında pul vəsaitləri və onların ekvivalentləri olaraq tanınmamasının əsas səbəbləri aşağıdakı fərziyyələr və mülahizələr olmuşdur:

- Hesabat dövründə Cəmiyyətin müştərilərdən əldə etdiyi pul vəsaitlərini istifadə etmək hüququ olmamışdır;

- Hesabat dövründə Cəmiyyət müştərilərdən əldə etdiyi pul vəsaitlərindən fayda əldə etməmişdir və həmin vəsaitləri əməliyyatları zamanı və ya investisiya məqsədləri üçün istifadə etməmişdir;
- Cəmiyyət bank hesabında saxladığı pul vəsaitləri üçün müştərilərinə əvəz ödəməyə məcbur deyil və əlavə olaraq Cəmiyyətin iflası və müflisləşməsi halında müştərilərdən alınan pul vəsaitləri kreditorların ümumi iddialarını maliyyələşdirmək üçün nəzərdə tutulmamışdır; və
- Cəmiyyət Azərbaycan Respublikası Mərkəzi Bankının (tənzimləyici orqan) qaydalarına müvafiq olaraq maliyyə hesabatlarında müştərilərdən əldə etdiyi pul vəsaitləri üzrə valyuta mübadiləsindən yaranmış gəlir və ya zərərləri hesablamamalı və tanımamalıdır.

Rəhbərlik müştərilərinin pul vəsaitləri üzrə müxtəlif müqavilə əsasları və müxtəlif uçot qaydalarının aparıldığını müəyyən edərsə, maliyyə hesabatları çərçivəsində belə qalıqların təqdim edilməsi və açıqlanması müxtəlif ola bilər.

**Biznes modelinin qiymətləndirilməsi**

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Cəmiyyətin rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir. Cəmiyyətin rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Cəmiyyətin nəzarətindən kənar olan ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Qalıq kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur.

Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi ("YƏMFÖ")

Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda, məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirildiyi, amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadığı hallarda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ

xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZVƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Cəmiyyətin rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) aktiv ilkin olaraq mükafat və ya diskontla hazırlanmışdır, (ii) ilkin ödəniş məbləği müqavilə üzrə əsas məbləği və hesablanmış faizləri və müqavilənin vaxtından əvvəl ləğvi üçün ağlabatan əlavə kompensasiyanı əks etdirir və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

**Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu**

Cəmiyyət adi fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün aktiv bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

**Ədalətli dəyər**

Cəmiyyətin rəhbərliyi, mənfəət və ya zərər hesabına ədalətli dəyərdə göstərilən maliyyə aktivlərinin (əsas brokerdən alınacaq vəsaitlər və məhdudlaşdırılmış əmanətlər) və maliyyə öhdəliklərinin (müştərilərə ödəniləcək vəsaitlər) ədalətli dəyərinin müəyyənləşdirilməsində əhəmiyyətli dərəcədə təxminlərdən istifadə edir. Daha ətraflı məlumat üçün 29 saylı Qeydə nəzər salın.

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunverciliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, vergi və gömrük qurumları Cəmiyyətin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini nəzərdən keçirə bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər.

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və aktivlərdən istifadə hüququ**

16 saylı MHBS-in tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul

yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-un Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış hesabat dövrlərinə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ), Banklararası təklif olunan faiz həddi ("IBOR") üzrə aparılan islahatların maliyyə hesabatlılığı üzrə yarana biləcək potensial təsirinə cavab olaraq, "Baza Faiz Dərəcəsi İslahatı"nı (9 saylı MHBS, 39 saylı BMUS və 7 saylı MHBS-ə edilmiş Düzəlişləri) dərc etmişdir. İslahatlar hedcinq edilmiş maddənin və ya hedcinq alətinin göstəricilərinə əsaslanan pul axınlarının vaxtı və/və ya məbləği ilə bağlı qeyri-müəyyənliyə səbəb olarsa, hedcinq əlaqəsi təsirə məruz qalır. Bu düzəlişlərin heç bir faiz dərəcəsi hedcinq əlaqəsi olmadığı üçün Cəmiyyətin maliyyə hesabatlarına təsiri yoxdur.

3 saylı MHBS Müəssisələrin Birləşməsi. "Müəssisə" tərifinə edilən Düzəliş - Düzəlişlər şirkətlərə əldə edilmiş aktivlərin müəssisə və ya aktivlər qrupu olduğunu müəyyənləşdirməyə kömək edəcək.

Edilmiş düzəliş biznes xidmətlərinin nəticələrinin müştəriləri məhsul və xidmətlər ilə təmin etmək olduğunu vurğulayır. Halbuki əvvəlki anlayışa əsasən, biznes anlayışı dividend şəklində, daha aşağı xərclərə və ya investorlara və digərlərinə iqtisadi mənfəət təmin etmək məqsədi daşıyırdı.

Alınan aktivin müəssisə və ya aktivlər qrupu olduğunu fərqləndirmək vacibdir, çünki alıcı qudvili yalnız biznesi alarkən tanıyır. Dəyişikliklərə əsasən, "biznes"in yeni tərifi müştərilərə məhsul və ya xidmətlərin göstərilməsi, investisiya gəlirinin yaranması (məsələn, dividendlər və faizlər) və ya adi fəaliyyətdən digər gəlirlər yaranmasının ayrılmaz tərkib hissəsidir.

"Əhəmiyyətlilik" anlayışının yeni tərifi - MUBSŞ şirkətlərin əhəmiyyətliliklə bağlı qərarları daha asan verməsi üçün əhəmiyyətlilik prinsipinə düzəlişlər dərc etmişdir. Yeni dəyişikliklər "Maliyyə Hesabatlarının Təqdimatı" adlı 1 saylı BMUS və "Mühasibat Uçotu Qaydaları, Uçot Ehtimallarındakı Dəyişikliklər və Xətalar" adlı 8 saylı BMUS-a şamil edilir.

Dəyişikliklər əhəmiyyətliliyin tərifini və bu günə qədər MHBS-in digər standartlarında göstərilmiş olan əhəmiyyətlilik prinsiplərinin tətbiqi ilə bağlı təlimatları da hesabat hazırlayanlar üçün aydınlaşdırır. Yeni tərifə əsasən, məlumat o zaman əhəmiyyətli sayılır ki, onun gizlədilməsi, təhrif edilməsi və ya dəyişdirilməsinin maliyyə hesabatlarını ümumi məqsədlər üçün istifadə edən əsas tərəflərin qərarlarına təsir etməsi ehtimal edilir və bu məlumat hesabat hazırlayan konkret müəssisə üzrə maliyyə məlumatı xarakterinə malikdir.

15 may 2020-ci ildə BMUSŞ tərəfindən "COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri"nə (16 saylı MHBS-ə edilmiş Düzəliş) icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi düzəlişi edilmişdir.

COVİD-19 ilə əlaqəli İcarə Güzəştləri üzrə dəyişikliklər (16 saylı MHBS-ə edilmiş düzəliş) 16 saylı MHBS-ə aşağıdakı düzəlişləri etmişdir:

- icarəçilərin COVİD-19 ilə əlaqəli icarə güzəştinin icarə modifikasiyası olub-olmadığının qiymətləndirilməsinə dair güzəşt ilə təmin edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən, icarə modifikasiyası olmadığı kimi, COVİD-19 ilə əlaqəli icarə güzəştlərini hesaba verməlƏrinin tələb edilməsi;
- güzəşt tətbiq edən icarəçilərdən bu faktı açıqlamalarının tələb edilməsi; və
- icarəçilərdən 8 saylı BMUS-a uyğun olaraq güzəşt tədbirlərini retrospektiv şəkildə tətbiq etmələrinin və əvvəlki dövr rəqəmlərini yenidən təkrar etməmələrinin tələb edilməsi.

Dəyişikliklər 1 iyun 2021-ci il tarixindən etibarən qüvvədədir. Düzəlişlərin erkən tətbiqinə icazə verilir. Bu standartın qəbul edilməsi maliyyə hesabatlarına hər hansı bir formada təsir etməmişdir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir.

**17 saylı MHBS - "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-ni tətbiq etməlidir.

17 saylı MHBS, 2023-cü il yanvarın 1-də və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir.

**Öhdəliklərin təsnifatına aydınlıq gətirilməsi ilə bağlı 1 saylı BMUS üzrə Düzəlişlər - 2020-ci il yanvar ayında BMUSŞ "Cari və Uzunmüddətli olmaqla, Öhdəliklərin Təsnifatı"nı (1 saylı BMUS üzrə Düzəlişlər) dərc etmişdir. Düzəlişlər öhdəliklərin 1 saylı BMUS**-a əsasən, hesabat tarixinə müqavilə razılaşmaları üzrə təsnifatına daha ümumi yanaşma təklif edir. Öhdəliklərin cari və uzunmüddətli olmaqla təsnifatı üzrə düzəlişlər (1 saylı BMUS üzrə Düzəlişlər) aktiv, öhdəlik üzrə gəlirlərin və ya xərclərin tanınma müddətinə və ya məbləğinə, eləcə də bu anlayışlar üzrə müəssisənin təqdim etdiyi açıqlamalara deyil, yalnız öhdəliklərin maliyyə vəziyyəti haqqında hesabatdakı təqdimatına təsir edir.

Düzəlişlər 1 yanvar 2023-cü il tarixində və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvədədir və retrospektiv şəkildə tətbiq olunmalıdır. Düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad - 3 saylı MHBS-ə edilmiş Düzəliş** - 2020-ci ilin may ayında BMUSŞ tərəfindən "Müəssisələrin Birləşməsi" adlı 3 saylı MHBS standartına düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş Maliyyə Hesabatlılığının Konseptual Əsaslarına istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial "2 gün" mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır. Dəyişikliklər 1 yanvar 2022-ci il

tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və perspektivli şəkildə tətbiq olunur.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar** - 16 saylı BMUS-a edilən düzəlişlər. 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar - Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini buraxmışdır. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və müəssisənin düzəlişi ilk dəfə tətbiq etdiyi zaman təqdim olunan ən erkən dövrün başlanğıcında və ya ondan sonra istifadəyə verilə bilən əmlak, tikili və avadanlıqlara retrospektiv şəkildə tətbiq edilməlidir.

**Ağır Şərtli Müqavilələr - Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər** - 37 saylı BMUS-a edilən düzəlişlər. 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-a müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur. Düzəlişlər 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**1 saylı MHBS "Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi"** - ilkin tətbiq edən törəmə olaraq. BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-ə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir. Dəyişiklik 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

**9 saylı MHBS Maliyyə Alətləri** - Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-ə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir. Düzəliş 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Cəmiyyət müəssisənin bu düzəlişin ilk tətbiq olunduğu illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilən və ya mübadilə edilən maliyyə öhdəliklərinə düzəlişləri tətbiq edəcəkdir.

**"41 saylı BMUS Kənd Təsərrüfatı"** - Ədalətli dəyər ölçmələrində vergi. MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 41 saylı BMUS Kənd Təsərrüfatı Standartına dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-un 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Müəssisə düzəlişləri 1 yanvar 2022-ci il tarixində və ya bu tarixdən sonra başlayan ilk illik hesabat dövrünün başlanğıcında və ya bu tarixdən sonra ədalətli dəyər ölçmələrinə perspektivli şəkildə tətbiq edir. Düzəlişin erkən tətbiqinə icazə verilir.

**10 saylı MHBS - "Konsolidə Edilmiş Maliyyə Hesabatları"** və **28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi "**-10 saylı MHBS və 28 saylı BMUS-a edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər, xüsusi olaraq, kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi hələ ki, MUBSŞ tərəfindən müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi qeyd edilmədiyi halda, yeni standartların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

## 6. GƏLİRLƏR

Əməliyyat və İnvestisiya gəlirləri aşağıdakılardan ibarətdir:

(a) Əməliyyat gəlirləri

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Qiymətli kağızlarla bağlı brokerlik haqları | 17,076 | - |
| Portfelin idarə edilməsindən gəlir | 8,296 | - |
| **Cəmi əməliyyat gəlirləri** | **25,372** | **-** |

(b) İnvestisiya gəlirləri

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Dividend gəliri | 15,000 | 15,226 |
| **Cəmi investisiya gəlirləri** | **15,000** | **15,226** |

## 7. İNZİBATİ VƏ SAİR ƏMƏLİYYAT XƏRCLƏRİ

İnzibati və sair əməliyyat xərclər aşağıdakılardan ibarətdir:

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər | 28,785 | - |
| Komissiya xərcləri | 9,288 | - |
| Üzvlük haqqı | 5,635 | - |
| Vergi xərcləri | 1,500 | 1,523 |
| Amortizasiya və köhnəlmə xərcləri | 1,255 | - |
| Bank xidmətləri üzrə haqlar | 435 | 20 |
| Rabitə xərcləri | 216 | - |
| Sığorta xidmətləri üzrə xərclər | 38 | - |
| Digər xərclər | 159 | - |
| **Cəmi əməliyyat xərcləri** | **47,311** | **1,543** |

## 8. MƏNFƏƏT VERGİSİ

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış maliyyə illəri üzrə effektiv olan 20% vergi dərəcəsindən istifadə etməklə bütün ehtimal edilən vergi öhdəlikləri üzrə ehtiyat yaradılmışdır.

Cəmiyyət cari mənfəət vergisi öhdəliklərini və vergi bazalarını Cəmiyyətin fəaliyyət göstərdiyi Azərbaycan Respublikasının vergi qanunvericiliyinə uyğun olaraq aktiv və öhdəliklərdə dəyərləndirir və əks etdirir və bu hesablamalar MHBS-dən fərqlənir.

Aşağıda göstərilmiş vergi dərəcəsi, vergi qanunvericiliyi əsasında vergiyə cəlb edilən mənfəət vergisi üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən hüquqi şəxslər tərəfindən ödənilməli olan 20%-ə bərabər vergi dərəcəsini təşkil edir

| | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| Mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış vergi xərci | 251 | - |
| **Cəmi mənfəət vergisi xərci** | **251** | **-** |

## 9. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı qalıqlardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Bank hesablarında olan pul vəsaitləri | 292,071 | 15,126 |
| Kassa | 155 | 155 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **292,226** | **15,281** |
| | | |
| Bank hesablarinda olan pul vəsaitlərindən: | | |
| · Milli valyutada bank hesabları | 290,633 | 13,688 |
| · Xarici valyutalarda bank hesabları | 1,438 | 1,438 |
| | **292,071** | **15,126** |

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyət tərəfindən idarə olunan müştəri hesabı 29,304 AZN qədər olmuşdur.

## 10. ƏMLAK VƏ AVADANLLIQLAR

Əmlak və avadanlıqlar aşağıdakılardan ibarətdir:

| | Qeyd | Yüksək texnologiyalar | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyərdə** | | | | |
| **1 yanvar 2021-ci il** | | - | - | - |
| Əlavələr | | - | - | - |
| Silinmələr | | - | - | - |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| Əlavələr | | 3,360 | - | 3,360 |
| Silinmələr | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | **3,360** | - | **3,360** |
| | | | | |
| **Yığılmış köhnəlmə** | | | | |
| **1 yanvar 2021-ci il** | | - | - | - |
| İl üzrə köhnəlmə | 7 | - | - | - |
| Silinmələr üzrə ləğv edilmiş | | - | - | - |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| İl üzrə köhnəlmə | 7 | 1,255 | - | 1,255 |
| Silinmələr üzrə ləğv edilmiş | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | **1,255** | - | **1,255** |
| | | | | |
| **Xalis qalıq dəyəri** | | | | |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | **2,105** | - | **2,105** |

## 11. QEYRİ-MADDİ AKTİVLƏR

Qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

| | Qeyd | Lisenziya | Digər | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyərdə** | | | | |
| **1 yanvar 2021-ci il** | | - | - | - |
| Əlavələr | | - | - | - |
| Silinmələr | | - | - | - |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| Əlavələr | | 60,000 | - | 60,000 |
| Silinmələr | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | **60,000** | - | **60,000** |
| | | | | |
| **Yığılmış amortizasiya** | | | | |
| **1 yanvar 2021-ci il** | | - | - | - |
| İl üzrə amortizasiya xərci | 7 | - | - | - |
| Silinmələr üzrə ləğv edilmiş | | - | - | - |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| İl üzrə amortizasiya xərci | 7 | - | - | - |
| Silinmələr üzrə ləğv edilmiş | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | - | - | - |
| | | | | |
| **Xalis qalıq dəyəri** | | | | |
| **31 dekabr 2021-ci il** | | - | - | - |
| **31 dekabr 2022-ci il** | | **60,000** | - | **60,000** |

Qeyri-maddi aktivlərə broker fəaliyyəti üçün əldə olunmuş lisenziyalar və qiymətli kağızlar üzrə ticarətlə bağlı digər lisenziyalar daxildir.

## 12. İNVESTİSİYA QİYMƏTLİ KAĞIZLARI

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| **DMGVƏD ilə kapital qiymətli kağızları** | | |
| Cəmi DMGVƏD ilə kapital qiymətli kağızları | 240,000 | 240,000 |
| **Cəmi investisiya qiymətli kağızları** | **240,000** | **240,000** |

## 13. TƏXİRƏ SALINMIŞ VERGİLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Əmlak və avadanlıqlar | 1,255 | - |
| | **1,255** | - |
| Xalis müvəqqəti fərqlər | 1,255 | - |
| | 20% | 20% |
| **Təxirə salınmış vergi aktivləri** | **251** | - |

## 14. ALINACAQ KOMİSSİYA HAQLARI

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Brokerlik haqları üzrə alınacaq vəsaitlər | 5 | - |
| **Cəmi alınacaq komissiya haqları** | **5** | - |

Cəmiyyət 11 Noyabr 2022-ci il tarixindən sonra, "Bakı Fond Birjası" QSC-nin nizamnamə kapitalının 4.76%-nə sahibdir. 25 iyun 2021-ci il tarixində "Bakı Fond Birjası" QSC bölüşdürülməmiş mənfəətdən köçürmə yolu ilə səhmlərinin nominal dəyərini 200 AZN-dən 800 AZN-dək yüksəldib. Beləliklə, Cəmiyyətin səhm qiymətli kağızlarında 180,000 AZN artım əldə edilmişdir.

Cəmiyyət 2022-ci ildə qiymətli kağızlar üzrə 15,000 AZN məbləğində gəlir əldə etmişdir (2021-ci il: 15,226 AZN).

İnvestisiya qiymətli kağızlarının bütün qalıqları 1-ci Mərhələyə aid edilmişdir. Cəmiyyətin investisiya qiymətli kağızlarına dair ehtimal olunan kredit zərərləri təxmini olaraq sıfıra bərabərdir.

31 dekabr 2022 və 2021-ci il tarixlərində başa çatmış illər ərzində mərhələlər arasında köçürmələr olmamışdır.

## 15. DİGƏR AKTİVLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Təltəlhesab şəxslərlə hesablaşmalar | 1,817 | 1,817 |
| **Cəmi digər aktivlər** | **1,817** | **1,817** |

## 16. KAPİTAL VƏ EHTİYATLAR

### (a) Nizamnamə kapitalı

Cəmiyyətin qeydə alınmış nizamnamə kapitalı 31 dekabr 2022-ci il tarixinə 400,000 AZN-ə bərabər olmuşdur (2021: 80,000 AZN).

### (b) İnvestisiya qiymətli kağızları üzrə xalis reallaşdırılmamış gəlirlər

Bu ehtiyat 144,000 AZN (2021-ci il: 144,000 AZN) təşkil edən DMGVƏD-də investisiya qiymətli kağızları üzrə ədalətli dəyər dəyişikliklərini qeyd edir.

### (c) Kapitalın idarə edilməsi

Kapitalın idarə edilməsində Cəmiyyətin məqsədləri onun fəaliyyətini davam etdirmək qabiliyyətini qorumaq üçün iştirakçıların mənfəətini qaytarmaq və kapitalın uyğunluq nisbətinə nail olmaq üçün kafi kapital bazasını saxlamaqdır.

Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 29 sentyabr 2015-ci il tarixində kapitalın minimal məbləği ilə bağlı mövcud tələblərinə əsasən, mövcud investisiya şirkətləri məcmu kapitalın minimal məbləğini 300,000 AZN həcmində saxlamalıdırlar. Hesabat dövrü ərzində, Cəmiyyət tənzimləyici qurum tərəfindən kapital üzrə müəyyən olunmuş tələblərə tam şəkildə cavab vermişdir

Cəmiyyətin kapitalın idarə olunmasına dair rəsmi siyasəti olmadığından rəhbərlik Cəmiyyətin əməliyyat və strateji tələbatlarını ödəmək üçün və bazar iştirakçılarının əminliyini saxlamaq üçün kifayət qədər kapital bazasını qoruyub saxlamağa çalışır. Buna pul vəsaitlərinin səmərəli idarə edilməsi, Cəmiyyətin gəlirləri və mənfəətinin davamlı monitorinqi və Cəmiyyətin əməliyyat üzrə pul axınları ilə maliyyələşdirilən uzunmüddətli investisiya planları ilə nail olunur. Bu tədbirlər sayəsində Cəmiyyət mənfəətin davamlı artımına nail olmağa çalışır.

## 17. DİGƏR ÖHDƏLİKLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Vergi və sosial ayırmalar üzrə öhdəliklər | 38,077 | - |
| İşçilərə ödəniləcək vəsaitlər | 1,846 | - |
| Digər | 19,326 | 33,255 |
| **Cəmi digər öhdəliklər** | **59,249** | **33,255** |

## 18. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

***Məhkəmə prosedurları***

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Öz təxminləri, eləcə də həm daxili, həm də xarici peşəkar məsləhətlər əsasında Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün ehtiyat yaradılmamışdır.

***Vergi qanunvericiliyi***

Cəmiyyətə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Azərbaycan vergi orqanları tərəfindən vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəalyyəti yoxlanıla bilər.

Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

***Kapital məsrəfləri ilə bağlı öhdəliklər***

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli müqavilə öhdəlikləri mövcud olmamışdır.

***Fidusiar fəaliyyətlər***

31 dekabr 2022-ci il tarixinə müştərilərin adından saxlanılan borc qiymətli kağızları və pul vəsaitləri müvafiq olaraq 6,943,000 AZN və 29,304 AZN təşkil etmişdir (31 dekabr 2021-ci il: müştəri qalığı olmamışdır).

## 19. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, coğrafi, valyuta, likvidlik və faiz riski), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk sərhədlərini təyin etmək və sonradan risklərin o sərhədlər arasında saxlanılmasını təmin etməkdir. Əməliyyat və hüquq risklərinin idarə edilməsi funksiyaları əməliyyat və hüquq risklərinin azaldılması məqsədilə daxili qayda və prosedurların təmin edilməsini nəzərdə tutur.

***Kredit riski***

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri broker şirkətləri və fərdi müştərilərdir.

Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra idarə heyəti tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir. Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

***Bazar riski***

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişiklərinə məruz qalan xarici valyuta və faiz gəliri/xərci yardan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

***Xarici valyuta riski***

Xarici valyuta riskini idarə edərkən Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Qeyri-maliyyə aktivləri əhəmiyyətli valyuta risklərinin yaranmasına gətirib çıxarmır. Ticarət əməliyyatları nəticəsində xarici valyuta riskinə nəzarət Cəmiyyətin müqavilə əsasında cəlb etdiyi kənar maliyyəçi tərəfindən müntəzəm olaraq həyata keçirilir və aşağıdakı qaydada idarə olunur:

I. Hər səviyyə üzrə xarici valyutalar arasında mövqelərin və bu valyutalar üzrə müvafiq likvidlik səviyyələrinin monitorinqi;
II. Xarici valyutaların, xüsusilə də ABŞ dollarının məzənnələrində gələcək dəyişmələrin proqnozlaşdırılması.

Cəmiyyətin mənfəət və zərərinə təsirindən əlavə valyuta dəyişmə dərəcələrində belə dəyişikliklərin Cəmiyyətin kapitalına təsiri mövcud deyil. Məruz qalma Cəmiyyət müəssisəsinin əməliyyat valyutası olmayan valyutada əks etdirilən maliyyə qalıqları üçün hesablanır.

***Likvidlik riski***

Likvidlik riski müəssisənin maliyyə öhdəliklərini yerinə yetirməsi zamanı üzləşəcəyi çətinliklərlə bağlı riskdir. Cəmiyyət əlində olduğu pul vəsaitləri üzrə gündəlik tələblərə məruz qalır. Likvidlik riski Cəmiyyətin kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri tərəfindən idarə edilir. Rəhbərlik hər ay Cəmiyyətin pul vəsaitləri hərəkətinin dəyişdirilən proqnozlarının monitorinqini həyata keçirir.

Cəmiyyətin likvidliyin idarə olunması üzrə rəhbərliyi öhdəliklərin yerinə yetirilməsi üçün zəruri likvidlik aktivləri səviyyəsinin hesab edilməsini, maliyyələşdirmə vəsaitlərinin əldə olunması üzrə imkanların saxlanılmasını, idarəetmə qaydalarına qarşı təəhhüdlər planı və nizamnamə tələblərinə qarşı maliyyə vəziyyəti üzrə likvidlik əmsalının monitorinqinin keçirilməsini tələb edir.

Kənardan cəlb edilmiş maliyyə mütəxəssisləri gündəlik likvidlik mövqeyinin monitorinqini və normal və ciddi bazar şərtlərini əhatə edən mütəmadi likvidlik mövqeyinin yoxlanılmasını keçirir. Kənardan cəlb edilmiş maliyyə mütəxəssislərinin öhdəliklərinə aşağıdakılar daxildir:

i. pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və hesabatın verilməsi;
ii. likvidlik riskinin toplanması faktoru kimi ən böyük təchizatçıların monitorinqi;
iii. lazım olduqda, orta və qısamüddətli borcların əldə edilməsi məqsədi ilə yerli və beynəlxalq bazarlara fəal cəlb edilmə; və
iv. Cəmiyyətin inkişaf edən fəaliyyəti sayəsində mümkün olan pul vəsaitləri hərəkətinin monitorinqi.

| | Tələb edilənədək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilə kimi | Ödəniş tarixi təyin edilməyib | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Nağd pul vəsaitləri və bank hesabları | 292,226 | - | - | - | - | 292,226 |
| İnvestisiya qiymətli kağızları | - | - | - | - | 240,000 | 240,000 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **292,226** | **-** | **-** | **-** | **240,000** | **532,226** |
| | - | - | - | - | - | - |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | - | - | - | - | - | - |
| Digər öhdəliklər | 1,954 | - | - | - | 19,218 | 21,172 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | **1,954** | - | - | - | **19,218** | **21,172** |
| **XALİS MÖVQE** | **290,272** | - | - | - | **220,782** | **511,054** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **290,272** | **290,272** | **290,272** | **290,272** | **511,054** | |

| | Tələb edilənədək və 1 aydan az | 1 aydan 3 ayadək | 3 aydan 1 ilədək | 1 ildən 5 ilə kimi | Ödəniş tarixi təyin edilməyib | 31 dekabr 2021-ci il |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | - | - | - | - | - | - |
| Nağd pul vəsaitləri və bank hesabları | 15,281 | - | - | - | - | 15,281 |
| İnvestisiya qiymətli kağızları | - | - | - | - | 240,000 | 240,000 |
| **CƏMİ MALİYYƏ AKTİVLƏRİ** | **15,281** | - | - | - | **240,000** | **255,281** |
| | | | | | | |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Digər öhdəliklər | - | - | - | - | 33,255 | 33,255 |
| **CƏMİ MALİYYƏ ÖHDƏLİKLƏRİ** | - | - | - | - | **33,255** | **33,255** |
| | | | | | | |
| **XALİS MÖVQE** | **15,281** | - | - | - | **206,745** | **222,026** |
| **MƏCMU LİKVİDLİK BOŞLUĞU** | **15,281** | **15,281** | **15,281** | **15,281** | **222,026** | |

## 20. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir.

Qapalı Səhmdar Cəmiyyəti
Capital Partners
Closed Joint-Stock Company

**İkram Səfərəliyev**
**Direktor**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Məqsudə Şəkərli**
**Mühasib**
31 may 2023-cü il
Bakı, Azərbaycan Respublikası